*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 399-404*

https://doi.org/10.62837/2024.11.399
**CAVİDƏ MƏMMƏDOVA**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**
**Hüseyn Cavid prospekti, 117**
**cavi_e@yahoo.com**

# DEVİD HERBERT LOURENSİN NƏSRİNDƏ İNSAN VƏ İCTİMAİ MÜHİT PROBLEMİ

**Xülasə**

Dünyaşöhrətli yazıçı Devid Herbert Lourensin yaradıcılığı təkcə ingilis ədəbiyyatında deyil, dünya ədəbiyyatında mühüm mövqeyə sahibdir. Yazarın ədəbi yaradıcılığında, esselərində və fəlsəfi əsərlərində insan, onun təbii duyğuları, müasir dünyada, sənayeləşmiş cəmiyyətdə insanlar arasındakı münasibətlər kimi bir çox mühüm məsələlər xüsusi yer alır. Devid Herbert Lourens, hər şeydən əvvəl, filosof yazıçıdır. Məhz onun fəlsəfi görüşləri yaradıcılığında mövzu, məzmun keyfiyyərlərini, dünya ədəbiyyatı üçün yeni olan obrazları müəyyən etmişdir. Devid Herbert Lourens ölkədə gedən mürəkkəb ictimai-siyasi proseslərin, iqtisadi inkişafın, sənayeləşmənin təkcə insanların sosial həyatında deyil, hisslərində, psixikasındakı təsirlərini qələmə alır.

Sürətlə sənayeləşən mühitdə insanların vəziyyətini, ruh halını təqdim etməyə çalışır. Devid Herbert Lourens belə bir mühitdə insanlar arasındakı münasibətlərin hansı şəkildə dəyişdiyini, bunun zəminində də insanların psixologiyasının, ruh halının hansı vəziyyətə gəldiyini öyrənməyə çalışır. Yazar insan təbiətindəki təbii keyfiyyətlərin, duyğuların qorunmasını, insanların öz duyğularını anlayaraq, özlərini dərk etməsini vacib sayır.

Məqalədə Devid Herbert Lourensin nəsr əsərlərinin mövzu və məzmun probleminə qısa nəzər salınır, yazarın romanlarında insan və ictimai mühit probleminin əhəmiyyətinə aydınlıq gətirilir. Yazıçının nəsr əsərlərində ictimai problemlərin bədii əksi insan və mühit, insan və texniki inkişaf, mühit və insanın mənəvi aləmi arasındakı ziddiyətlərin bədii əksi təhlil edilir. Yazıçının “Oğullar və sevgililər”, “Aşiq qadınlar”, “Göyqurşağı” və digər roman və hekayələrində insan və mühit arasındakı fiziki və mənəvi bağların, qarşılıqlı təsirlərin, insanar arasındakı münasibətlərin bədii-fəlsəfi yozumuna diqqət çəkilir.

**Açar söz:** Nəsr, Devid Herbert Lourens, roman, hekayə

## Giriş

XX əsrin əvvəllərində İngiltərədə yaşanan ictimai-siyasi vəziyyət, müxtəlif sosial problemlər fərqli mövzular əsasında və hər yazara məxsus fəlsəfi görüşlər baxımından bədii əksini, izahını tapmışdır. Həmin dövrdə yaranan və müxtəlif yazarlara məxsus əsərlər vasitəsilə ümumilikdə Böyük Britaniyadakı ictimai-siaysi

mənzərəni, insanların ruh halını, cəmiyyətdəki münasibətləri, bir sözlə, bir çox ciddi problemləri müşahidə etmək, mahiyyətini anlamaq mümkündür. Bu məsələ daha çox nəsr əsərləri üçün xarakterik bir keyfiyyətdir. Poeziyada da bu kimi məsələlərin bədii uğurlu həllini görmək mümkündür. Lakin nəsr əsərləri hədəf problemi daha geniş, incəliklərinə qədər təsvir etmək və yazarlara məxsus fəlsəfi baxışları daha yeni üsul və özünəməxsus prinsiplər əsasında təqdim etmək imkanına malik olduğu üçün sözügedən dövrdə ingilis nəsri daha dərin və çoxcəhətli keyfiyyətlərə sahiblənir. Hər bir yazar mövcud ictimai problemləri özünəməxsus baxış bucağından qiymətləndirdiyi üçün əsərlərində bu problemlərin təqdim üsulları da fərqli mahiyyət qazanmışdı. Həm də hər bir yazar mövcud problemlərin onun üçün daha önəmli görünən tərəflərini işıqlandırmağa çalışdığı üçün Böyük Britaniya ədəbiyyatında mürəkkəb bir nəsr səhifəsi formalaşır. Başqa sözlə, hər yazar ictimai mühütin problemlərinə müxtəlif baxış bucağından baxmaqda idi. O.Hakslinin, J.Konradın, C.Coysun, D.H. Lourensin və b. yardıcılığında İngiltərə ictimai mühitinin müxtəlif problemlərini, fərqli mənəvi-psixoloji ruh halının təsvirini görmək mümkündür.

Həmin dövrdə İngiltərədə baş verən hərtərəfli inkişaf, xüsusən də texniki tərəqqi və bu sürətli inkiafın sadə həyatda yaratdığı çətinliklər, bəlkə də İngiltərənin ictimai problemlərinin başında gəlirdir. Həmin problemlərin müxtəlif aspektlərdən bədii əksini, bunun insanların taleyinə təsirini, belə bir mühitdə yaşamağın, var olmağın asan və çətin, müsbət və mənfi tərəflərini isə Devid Herbert Lourensin yaradıcılığında görmək mükündür.

### Devid Herbert Lourensin nəsrində insan və ictimai mühit problemi

Böyük ingilis yazıçısı Devid Herbert Lourensin yaradıcılığında, istər yazarın poeziyasında, istər nəsrində, esse və fəlsəfi əsərlərində əsas mövzu insan, onun hissləri, müasir dünyada və gələcəkdəki taleyi məsələsidir. Düzdür, ədəbiyyatın, fəlsəfənin və s. bir çox sahələrin də əsas məqsədi insan, onun duyğular aləmi və taleyi kimi mühüm problemlərdir. Lakin Devid Herbert Lourensin bu məsələyə yanaşma tərzi və baxış bucağı bir qədər fərqli və yenidir. Baxmayaraq ki, Devid Herbert Lourens özü də etiraf edir ki, ədəbi-fəlsəfi düşüncələrini əsaslandırmaq üçün klassik dövrdən müasir günümüzə qədər bir çox filosof və alimin əsərləri ilə fikir arayışında olmuş, insanın mahiyyətini, cəmiyyətdəki münasibətlər kimi ciddi problemləri dərindən anlamağa çalışmışdır. Lakin yazarın insan və cəmiyyət haqqında düşüncələri özünə qədərki fəlsəfə və ədəbi düşüncədən bəhrələnsə də tamamilə yeni və çox fərqli bir baxışın təzahürüdür.

Maraqlıdır ki, Devid Herbert Lourensin yaradıcılığı təkcə Böyük Britaniya ədəbiyyatında deyil, ümumilikdə Avropa ədəbiyyatənda yeni və fərqli bir səhifəni təşkil edir. Lakin onun əsərləri forma, təhkiyə baxımından həm özünəqədərki ingilis nəsrindən, həm də bir çox müasirlərinin, xüsusən də realist nasirlərin əsərlərindən fərqlənmir. Təbii ki, ilk baxışdan və səthi bir nəzərlə baxıldığında yazarın

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 399-404*

yaradıcılığını hətta realist nəsrin nümunəsi kimi görmək olar. Lakin, əslində, Devid Herbert Lourens yeni bir ədəbi yolun əsasını qoymaqda, daha dəqiq desək, fəlsəfi düşüncələrini özünəməxsus şəkildə ifadə etməkdə, qələmə aldığı mövzunu və problemi orijinal düşüncələr zəminində ifadə etməkdəydi. Ona görə də Devid Herbert Lourensin dünya ədəbiyyatına gətirdiyi yenilikləri onun əsərlərinin qurluşu, süjet xətti kimi məsələlərdə axtarmaq doğru deyil.

Devid Herbert Lourens, hər şeydən əvvəl, bir mütəfəkkir yazardır. Yazarın insan haqqında düşüncələri, qadın və kişi təbiəti, qan bağı (1) haqqında fəlsəfi fikirlər, onun yaradıcılığının mühüm məsələlərindəndir. Lakin Lournsin yaradıcılığında qadın problemini tədqiq etmək məqsədilə bu məsələyə Sovet dövrü ədəbiyytaşünaslığı üçün xarakterik olan "qadın problemi" prizmasından baxmaq yanlışdır. Yəni Devid Herbert Lourensin təqdim etdiyi qadın obrazları Cəfər Cabbarlının, Teodor Drayzerin və digər yazarların qadın obrazlarına bənzəmir, bu obrazların hər biri yazarın ədəbi-fəlsəfi fikirlərini ifadə etmək üçün mühüm vasitədir. XX əsr Qərb fəlsəfi düşüncəsini, İngiltərədəki ictimai-siyasi, hətta iqtisadi vəziyyəti, sadədən mürkkəbə qədər sosial problemləri, yazarın ədəbi-fəlsəfi görüşlərini və bunların çoxsaylı qaynaqlarını öyrənmədən Devid Herbert Lourensin yaradıcılığını düzgün araşdırmaq, yeni elmi nəticələr təqdim etmək mümkün deyil.

Devid Herbert Lourens ölkədə və dünyada gedən mürəkkəb ictimai-siyasi proseslərin, eləcə də iqtisadi inkişafın, bunun müsbət və mənfi tərəflərinin ciddi şəkildə təsir etdiyi social mühitdə insanların vəziyyətini təqdim etməyə çalışır. Devid Herbert Lourens belə bir mühitdə insanlar arasındakı münasibətlərin hansı şəkildə dəyişdiyini, bunun zəminində də insanların psixologiyasının, ruh halının hansı vəziyyətə gəldiyini öyrənməyə çalışır. Yazar bu məsələləri, yəni insanlar arasındakı münasibətləri bir tərəfdən "texniki tərəqqi, həyatın, istehsalın maşınlaşdırılması" (3, s.323), yəni ictimai mühitlə , digər tərəfədən də " qan, şüur kimi biloloji amillərlə" bağlı olduğunu qeyd edir (4, 225).

Ölkədə baş verən texniki inkişafın, xüsusən də "pulun, daha çox pul qazanamaq ehtirasının insan həyatı, hissləri, düşüncələri, taleyi üzərindəki təsirləri" (5, s. 291), insan psixikasında yaratdığı dəyişikliklər yazarın yaradıcılığının əsas diqqət hədəflərindən biridir. Eyni zamanda, hər şeyə rəğmən insan varlığında heç bir şəkildə dəyşikliyə məruz qalmayan təbii keyfiyyətlər yazarın maraqları çərçivəsindəki mühüm məsələlərdən biridir.

Yazar ictimai mühitin insan varlığında güclü bir təsirə sahib olduğunu, insann düşüncə və hisslərinə ciddi təsir etdiyini, bunun timsalında da insanın təbiətinə və taleyinə müdaxilə etmiş olduğuna inanır. Devid Herbert Lourens "Aşiq qadınlar" romanının qəhrəmanı Gurdunun mədənçiləri izlərkən düşüncələrini izah edərək, onun ruh halını xarakterizə edərək yazır:

"Ancaq Gurdun üçün bu güclü və yarı itələyici bir şeydi. O, heç vaxt deyə bilməzdi ki, Beldover nə üçün Londondan və cənubdan bu qədər fərqlidir, niyə

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 399-404*

insanın bütün duyğuları fərqlidir, niyə başqa sferada yaşayırmış kimi görünür. İndi anladı ki, bu, vaxtlarının çoxunu qaranlıqda keçirən güclü, yeraltı dünya adamlarının dünyasıdır…" (2, s. 345).

Qəhrəmanın real duyğu və düşüncələri ilə yazıçı onun daxilində indiyə qədər özündən xəbərsiz mövcud olan hisslərin, fikirlərin təzahürünü ustalıqla qələmə alaraq obrazın varlığındakı mürəkkəbliklərə diqqət çəkir. Həm də hiss və düşüncələrin avtomatik bir şəkildə davam etməsini təsvir edir ki, bu da insanların varlığında heç vaxt diqqət etmədikləri "şüur axını" kimi maraq doğrur. Lakin yazıçı bu səhnədə, əslində, qəhrəmanın hissləri və düşüncələri zəminində mədənçilərin həyatını, onların ağır iş nəticəsində necə dəyişdiklərini və kənardan digər insanlardn fərqli təsir bağışlamasını təsvir etməklə texniki tərəqqinin, sənaye inqilablarının müsbət keyfiyyətləri ilə bərabər fəsadlarına diqqət çəkir və bunu "qaranlıq dünyanın insanları" ifadəsi ilə xarakterizə edir.

Devid Herbert Lourensin "Aşiq qadınlar" əsərindən gətirilən bu kiçik nümunə yazarın yaradıcılığı üçün xarakterik olan bir-neçə məsələni qısa şəkildə olsa aydınlaşdırmağa kömək etmiş oldu. Təkcə bu əsərində deyil, digər roman və hekayələrində də Devid Herbert Lourens mövcud zaman, sosial yabançılaşma və sənayeləşməni əks etdirir, eyni zamanda, instinkti və təbiiliyi müdafiə edir. Onun "Oğullar və Aşiqlər", "Göy qurşağı", "Aşiq qadınlar" və "Ledi Çatterlinin sevgilisi" adlı romanları buna misal ola bilər.

**Nəticə**

Devid Herbert Lourensin fəlsəfi fikirləri və əsərlərinin bədii cəhətdən üstünlükləri ona şöhrət qazandırsa da yaradıcılığı birmənalı qarşılanmamış, mübahisələrə səbəb olmuş, özünəqədərki ədəbiyyat üçün xarakterik olmayan təsvirlərə görə əsərləri tənqidlərə və qadağalara məruz qalmış, buna görə də yazar müəyyən çətinliklər yaşamışdır. Lakin yazar, əslində, tənqidlərdə ittiham olunduğu problemlər haqqında deyil, sənayeləşmiş mühitdə insanların həyat şərtləri, yaşamaq imkanları haqqında düşünməkdə idi. Yazar mühitə uyğunlaşa bilən insan varlığının sənaye mühitində münasibətlərini hansı şəkildə, hansı şərtlərə əsaslanaraq və necə qura biləcəyini və bu münasibətlərin mahiyyətini araşdırmaqda idi.

Digər bir məsələ isə yazarın öz bədii-fəlsəfi görüşlərini bədii əsərləri vasitəsilə ifadə etməsi problemidir. İnsan təbiətinin mahiyyəti, şəxsiyyət və ictimai mühit haqqında görüşlərini ifadə etmək üçün yazar əsərlərində oxucular üçün tamamilə yeni olan qəhrəmanlara, problemlərə və təsvirlərə yer verir.

Daha çox romanları və hekayələri ilə tanınsa da Devid Herbert Lourens özünəməxsus, dərin fəlsəfi görüş təqdim edən, poetik baxımdan orijinal, özünəməxsus simvollara malik şeirlər müəllfidir və yazarın bir çox şeirlərində də insan və ictimai mühit problemi yer almaqdadır.

**JAVIDA MAMMADOVA**

**THE PROBLEM OF THE HUMAN BEING AND THE SOCIAL ENVIRONMENT IN THE PROSE OF DAVID HERBERT LAWRENCE**

**Abstract**

The work of the world-famous writer David Herbert Lawrence occupies an important place not only in English literature, but also in world literature. In his literary works, essays and philosophical works, many important issues such as man, his natural feelings and the relations between people in the modern world, in an industrialised society, occupy a special place. David Herbert Lawrence is first and foremost a philosopher writer. It was his philosophical views that determined the themes, qualities and images that were new to world literature in his novels. David Herbert Lawrence describes the effects of the complex socio-political processes, economic development and industrialisation taking place in the country, not only on the social life of the people, but also on their feelings and psyche. He tries to portray the situation and state of mind of people in a rapidly industrialising environment. David Herbert Lawrence tries to study how the relationships between people are changing in such an environment, and how the psychology and state of mind of people have changed as a result. The author believes it is important to preserve the natural qualities and emotions of human nature, and for people to understand their own emotions and realise themselves.

The article briefly examines the theme and content of David Herbert Lawrence's prose and clarifies the significance of the problem of man and the social environment in the writer's novels. It analyses the artistic reflection of social problems in the writer's prose, the artistic reflection of the contradictions between man and the environment, man and technical development, the environment and man's spiritual world. In the novels and stories of the writer, such as *Sons and Lovers, Women in Love, The Rainbow* and others, attention is drawn to the artistic and philosophical interpretation of the physical and spiritual relations between man and the environment, mutual influences and relations between people.

**Keywords**: David Herbert Lawrence, prose, novel, story

**МАМЕДОВА ДЖАВИДА**

**ПРОБЛЕМА ЧЕЛОВЕКА И СОЦИАЛЬНОЙ СРЕДЫ В ПРОЗЕ ДЭВИДА ГЕРБЕРТА ЛОУРЕНСА**

**РЕЗЮМЕ**

Творчество всемирно известного писателя Дэвида Герберта Лоуренса занимает важное место не только в английской, но и в мировой литературе. В его литературных произведениях, эссе и философских работах особое место занимают многие важные вопросы, такие как человек, его естественные чувства и отношения между людьми в современном мире, в индустриальном

обществе. Дэвид Герберт Лоуренс - прежде всего писатель-философ. Именно его философские взгляды определили в его романах новые для мировой литературы темы, качества и образы. Дэвид Герберт Лоуренс описывает влияние сложных социально-политических процессов, экономического развития и индустриализации, происходящих в стране, не только на социальную жизнь людей, но и на их чувства и психику. Он пытается изобразить ситуацию и душевное состояние людей в условиях стремительно развивающейся промышленности. Дэвид Герберт Лоуренс пытается изучить, как меняются отношения между людьми в такой среде и как в результате этого меняется психология и душевное состояние людей. Автор считает, что важно сохранять естественные качества и эмоции человеческой природы, а людям - понимать свои эмоции и реализовывать себя.

В статье кратко рассматривается тематика и содержание прозы Дэвида Герберта Лоуренса, выясняется значение проблемы человека и социальной среды в романах писателя. Анализируется художественное отражение социальных проблем в прозе писателя, художественное отражение противоречий между человеком и окружающей средой, человеком и техническим развитием, окружающей средой и духовным миром человека. В повестях и рассказах писателя, таких как «Сыновья и любовники», «Влюбленные женщины», «Радуга» и других, обращается внимание на художественно-философскую трактовку физических и духовных отношений человека и окружающей среды, взаимовлияний и взаимоотношений между людьми.

**Ключевые слова:** Дэвид Герберт Лоуренс, проза, роман, повесть

**Ədəbiyyat siyahısı**

1. Lawrence, D. H. Sons and Lovers. London: Penguin Books.
2. Lawrence, D. H. Women in love. https://www.gutenberg.org/cache/epub/4240/pg4240-images.html
3. Lawrence, D.H. Late Essays and Articles / D.H.Lawrence. – UK: Cambridge University Press, – 2004. – 464 p.
4. Lawrence, D.H. The Collected Letters. Cambridge: Cambridge Universety Press, 1979.
5. Lawrence, D.H. Phoenix . London: Heinemann, 1961.

**Rəyçi: Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov tərəfindən çapa tövsiyə olunmuşdur**